# YENİ NƏŞRLƏR

## QAFQAZ REGİONUNA HƏSR OLUNMUŞ ENSİKLOPEDİYA

Ensiklopedik nəşrlərin hazırlanması və nəşri hər bir xalqın mədəniyyətinin və elminin səviyyəsini müəyyən edən mühüm faktorlardan biridir. Bu nəşrlərin yaradılması çox mürəkkəb və zəngin elmi informasiya bazasına söykənən, konkret fakt və hadisələr haqqında bitkin məlumatların toplusudur. Ensiklopediyalar tarixən kitabın bir tipi kimi formalaşmışdır. Universal və sahəvi, mövzu xarakterli Ensiklopedik nəşrlər daha geniş yayılmışdır. Ensiklopediya yaratmaq bütövlükdə yazı və kitab mədəniyyətinin formalaşmasında müəyyən bir mərhələni təşkil edir. Bəşər mədəniyyəti tarixinə çox qiymətli incilər bəxş etmiş Azərbaycan xalqının Ensiklopedik nəşrlər yaratmaq sahəsində çox zəngin təcrübəsi vardır.

Ensiklopediyaların informasiya bazasının mükəmməlliyi və dolğunluğu, onların dünya kitabxanalarının soraq-biblioqrafik nəşrlər fondunun əsasını təşkil etməsinə gətirib çıxarmışdır. Təsadüfi deyildir ki, dünyanın məşhur kitabxanalarında bu tipli nəşrlər xüsusi şəraitdə mühafizə edilir və bir qayda olaraq onların mütailəsi kitabxana şəraitində mümkün olur.

Görkəmli alim, tarix elmləri doktoru, professor, Azərbaycan Respublikası təhsil nazirinin müavini, əməkdar müəllim İradə Hüseynovanın bu günlərdə oxuculara təqdim olunan "Qafqazın tarix ensiklopediyası" monumental əsəri məhz bu qəbildən olan nəşrlərdəndir və Ensiklopediyalar haqqında qeyd etdiyimiz fikirləri bir daha tamamlayır.

İradə Hüseynovanın "Qafqazın tarix ensiklopediyası" bəşər mədəniyyətinin ilk məskənlərindən biri olan Qafqaz regionuna həsr edilmişdir. Bu soraq – məlumat kitabı bütövlükdə Qafqaz haqqında universal informasiya mənbəyidir və öz miqyası, tərtibatı, metodikası, elmi informasiyaların sistemləşdirilməsi, ümumiləşdirilməsi və təqdim olunması metodikasının müvəffəqiyyətli həlli baxımından təqdirə layiqdir.

Oxucuların istifadəsinə verilən bu Ensiklopediya Qafqaz regionunda ilk insan məskənlərindən bu günümüzə qədər yaşayan etnos və xalqların tarixini kompleks şəkildə xarakterizə edən ilk universal Ensiklopedik mənbə kimi çox böyük elmi, siyasi və mədəni əhəmiyyətə malikdir.

Ensiklopediyanın elmi redaktorlarından olan M.V.Lomonosov adına Moskva Dövlət Universiteti Bakı filialının rektoru, filologiya elmləri doktoru, professor Nərgiz Paşayeva ensiklopediyaya ön söz yazmış və əsəri yüksək qiymətləndirərək onun milli elmə, eləcə də dünya elminə sanballı töhvə olduğunu xüsusi qeyd etmişdir.

İradə Hüseynovanın "Qafqazın tarix ensiklopediyası"nın elmi redaktorlarından biri də tarix elmləri doktoru, professor Tofiq Vəliyevdir.

Təqdirəlayiq haldır ki, şox zəngin milli, siyasi, mədəni və etnik xüsusiyyətlərə malik olan Qafqaz xalqlarının tarixi inkişaf proseslərini kompleks şəkildə

öyrənmək üçün mühüm əhəmiyyət kəsb edən bu əsər Azərbaycan Milli Elmlər Akademiyasının hesabatında mühüm elmi nailiyyət kimi qeyd edilmişdir.

Təqdim olunan nəşrin elmi yenilyi ondan ibarətdir ki, ilk dəfə olaraq Qafqaz regionunda baş verən hadisələr kompleks şəkildə, onların vəhdəti və qarşılıqlı əlaqəsi konteksində konseptual baxımdan öz həllini tapmışdır.

Elə əsl, həqiqi tarixin də missiyası məhz ondan ibarətdir ki, bir sıra millətlər-arası, etnik münaqişələrin obyektiv həllində, millətlərarası münasibətlərdə pozitiv meyllərin yaranmasında tolerantlığın formalaşmasında, cəmiyyətin demokratik və hüquqi əsaslarla möhkəmlənməsində, sosial-iqtisadi sferada nailiyyətlərin əldə edilməsində mühüm rol oynasın.

Ensiklopediya tarixi faktların zənginliyi, ayrı-ayrı tarixi hadisə, fakt və proseslərə yeni baxışların ümumiləşdirilməsi, tarixi xronologiyanın mükəmməlliyi, Qafqaz xalqlarının etnogenezi, dövlətçiliyinin təkamülü konteksində materialların dürüst və dolğun təqdim edilməsi ilə də diqqəti cəlb edir.

Əsərdə dünyanın nadir tarixi və coğrafi arealı olan Qafqaz, onun xalqları və etnoslarının formalaşması proseslərini izləmək üçün qiymətli məlumatların verilməsi həm mütəxəssislər, həm də geniş oxucu kütləsi üçün çox maraq doğurur.

Milli Ensiklopediyanın direktoru Tofiq Nağıyevin fikrincə, " "Qafqazın tarix ensiklopediyası" son dərəcə qiymətli, nüfuzlu tarixi mənbə, tarix elminin inkşafı yolunda yeni uğurlu addımları təcəssüm etdirən stolüstü kitabdır". Təcrübəli tədqiqatçı alim, professor İradə Hüseynova Qafqaz xalqlarının təsərrüfat və mədəni həyatında, onların sosial-iqtisadi sistemində, dillərində, adətlərində, ənənələrində tarixi inkşafın müxtəlif dövrlərində baş vermiş dəyişiklikləri təhlil etməyə müvəffəq olmuşdur.

"Azərbaycan" qəzetinin 2010-cu il tarixli 07 oktyabr sayında əsər haqqında yazılmış rəydə göstərildiyi kimi, müəllif bu nəşrdə Qafqaz regionunun bütün tarixi inkşaf dövrünü əhatə edir. İstedadlı alim qədim tarixə geniş ekskurs edərək etnosların yaranması, onların qarşılıqlı münasibətləri, qarşılıqlı təsiri və mədəniyyətlərin bir-birinə nüfuz etməsi problemlərinə toxunur, konkret tarixi faktlar və hadisələr nümunəsində Qafqaz xalqlarının çoxşaxəli həyatını işıqlandırır.

Yüksəl milli, mənəvi-əxlaqi və ümumbəşəri dəyərləri əsas tutan müəllif müasir mərhələdə uğurlu daxili və xarici siyasət yeridən, dünya səhnəsində mehriban qonşuluq, əməkdaşlıq və tolerantlıq prinsiplərinə əsaslanaraq öz münasibətlərini quran Azərbaycanın lider mövqeyini şərtləndirmiş amilləri hərtərəfli və dərindən təhlil edir. O, tamamilə haqlı olaraq görkəmli dövlət xadimi və siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin yaradılmasında və möhkəmlənməsində müstəsna rol oynadığını göstərir.

Azərbaycan Respublikasının Prezidenti, Heydər Əliyev kursunu ləyaqətlə davam etdirən İlham Əliyevin ölçülüb-biçilmiş siyasəti və yorulmaz fəaliyyəti sayəsində Respublikamız dünyanın inkşaf etmiş və Qafqazın lider dövlətlərindən birinə çevrilmişdir. Azərbaycan mühüm beynəlxalq və regional inteqrasiya proseslərinin təşəbbüsçüsü olmuş, təkcə öz xalqının deyil, bütövlükdə regionun rifah səviyyəsinin artmasını təmin etmişdir.

İradə Hüseynovanın "Qafqazın tarix ensiklopediyası"-nın informasiya tutumunun genişlənməsində əsərin sonunda "Ərazi və demoqrafik məlumatlar", "Qafqaz regionu: tarixi hadisə və faktlarda", "Hadisə və terminlərin kataloqu"nun verilməsinin oxucular üçün çox böyük əhəmiyyəti olduğunu qeyd etmək lazımdır.

“Ərazi və demoqrafik məlumatlar” yardımçı aparatında cənubi və şimali Qafqazın respublikaları, onların ərazisi, əhalisi, paytaxtları haqqında müfəssəl məlumatların verilməsi Qafqaz regionunda olan dövlət və xalqlar haqqında oxuculara operativ informasiya əldə etməyə imkan verir.

İkinci köməkçi göstərici “Qafqaz regionu: tarixi hadisə və faktlarda” adlanır. Ensiklopediyanın dəyərini artıran bu bölmə çox böyük zəhmətin bəhrəsidir və Qafqazın ərazisində qədim dövrdən müasir dövrə qədər baş verən ən mühüm tarixi hadisə və faktlar üzrə sinxron cədvəl şəklində tərtib edilmişdir.

Ensiklopediyada diqqəti cəlb edən cəhətlərdən biri də “Hadisə və terminlərin kataloqu”dur. Bu kataloq iki hissədən ibarətdir. Birinci hissədə tarixi hadisə və faktların əlifba siyahısı verilmiş və onlar haqqında ensiklopediyanın hansı səhifəsində bəhs olunduğu qeyd edilmişdir. Təqdimatın bu forması ensiklopediyadan istifadəni asanlaşdırmaq üçün tərtib edilmişdir və ona müraciət edən mütəxəssislərin vaxt itkisinin qarşısını almağa xeyli kömək edəcəkdir.

Bu bölmənin ikinci hissəsi isə Ensiklopediyada adı keçən tarixi-ictimai termin və anlayışların əlifba siyahısından ibarətdir. Bu yarımbölmə “Qafqazın tarix ensiklopediyası” adlı nəşrin müasir elmi və məlumat ədəbiyyatının hazırlanmasında çox zəruri olan və təəssüf ki, az istifadə edilən köməkçi aparatdır. Onun ən mühüm əhəmiyyəti ondan ibarətdir ki, ensiklopediyanın termin və anlayış aparatının dairəsini müəyyən etməyə imkan verir. Mükəmməl tərtib olunmuş bu hissənin də ensiklopedik və digər bu tipli məlumat nəşrlərində istifadə edilməsini arzu etmək olar.

“Qafqaz tarix ensiklopediyası” zəngin informasiya baza əsasında yaradılmışdır. Burada Azərbaycan və rus dillərində 844 adda Qafqaz regionu haqqında qaynaq, o cümlədən siyasi, tarixi, elmi-metodoloji, mədəniyyət, təhsil, etnoqrafiya, beynəlxalq münasibətlər, beynəlxalq hüquq, ədəbiyyat, folklor, etnopsixologiya, konfliktologiya və digər sahə və problemlər üzrə görkəmli dövlət xadimləri və tanınmış alimlərin əsərlərindən istifadə olunmuşdur. Bu da region haqqında ensiklopedik məlumat kitabının arxitekturasının mükəməlliyini, elmi çəkisinin obyektivliyini təmin etməyə imkan verir.

Müasir elmi, nəzəri, metodoloji və tarixi yanaşmanın yeni konsepsiyasına əsaslanan müəllif dünya düzənində və Qafqazda uğurlu siyasətin inkişafina böyük töhfələr vermiş ümummilli liderimiz Heydər Əliyevin əsərlərini ensiklopediyanın elmi aparatına daxil etmiş, bu da əsərin informasioloji və elmi dəyərini artımışdır. Təqdim olunan materiallar içərisində Azərbaycan mədəniyyətinin, elminin, təhsilinin, incəsənətinin, bütövlükdə cəmiyyətin sosial həyatının bütün sferalarının inkişafı üçün son illər böyük xidmətlər göstərmiş Mehriban xanım Əliyevanın şəxsi fəaliyyətinə və onun prezidenti olduğu Heydər Əliyev fondunun fəaliyyətinə mühüm yer ayrılması xüsusilə qeyd edilməlidir.

“Qafqaz tarix ensiklopediyası” Qafqaz regionunun tarixi, etnoqrafiyası, mədəniyyəti, elmi, təhsili, regionda geosiyasi vəziyyəti, inkşaf meylləri, region xalqlarının adət-ənənələri, folkloru, ədəbiyyatı, incəsənət ilə maraqlanan alim və mütəxəssislər və geniş oxucu auditoriyası üçün nəzərdə tutulması onu da arzulamağa imkan verir ki, bu sanballı əsərin müəllifi onu həm Azərbaycan, həm də ingilis dilinə tərcümə edərək ondan daha geniş istifadə imkanlarını yaratmağa müvəffəq olacaqdır.

Digər bir arzumuz isə Ensiklopediyanın çox böyük əhəmiyyətini nəzərə alaraq müvafiq icra hakimiyyəti orqanlarının 12 mindən çox kitabxanası olan Respublikamızda bu nəşrdən ictimai istifadəni səmərəli təşkil etmək üçün tədbirlər həyata

keçirməsi ilə bağlıdır. Nəşrə oxucuların böyük tələbatını nəzərə alaraq onun Mədəniyyət və Turizm Nazirliyi kitabxanalarına, Təhsil Nazirliyi sistemi kitabxanalarına, kitabxanası olan digər ali və icra hakimiyyət orqanlarının kitabxanalarına göndərilməsi ölkə vətəndaşlarının Qafqaz regionu haqqında biliklərini genişləndirər, onlarda bizim apardığımız ədalətli mübarizəyə inamı bir daha möhkəmləndirər və gənc nəslin vətənə məhəbbbət ruhunda tərbiyə olunmasına qiymətli töhvə olar.

Müəllif ensiklopediyanın quruluşu haqqında yazır: "Ensiklopediyanın quruluşu bir-biri ilə məntiqi və qarşılıqlı əlaqədə olan bölmələrdən ibarətdir. Onlar əsas informasiya kütləsi, cədvəl formalı ümumiləşdirici materiallardan, tarixi-biblioqrafik mənbə bazası və həmçinin illustrativ blokdan ibarət axtarış sistemindən ibarətdir".

Nəşrdə diqqəti cəlb edən əsas məsələlərdən biri də ondan ibarətdir ki, informasiyanın bir hissəsi Qafqaz xalqlarının tarixi keçmişində, müasir dövrdə böyük xidmətləri olan görkəmli dövlət xadimləri haqqında olan məlumatlardır.

**Abuzər Xələfov**,
əməkdar elm xadimi,
BMT yanında Beynəlxalq İnformasiyalaşdırma
Akademiyasının akademiki, tarix elmləri doktoru, professor,
BDU-nun Kitabxanaşünaslıq kafedrasının
müdiri

**İsmayılov Nadir**,
pedaqoji elmlər namizədi, dosent,
BDU-nun Biblioqrafiyaşünaslıq
kafedrasının müdiri